# "Azərbaycan dili öz şirinliyini ana laylasından alıb"

## Nağdəli Zamanovun sözlərinə görə, öz dilini sevməyən adam öz tarixini də yaxşı bilməz



**Mövzuma qəhrəmanımız Nağdəli Tapdıq oğlu Zamanovun tanıtımı ilə başlamaq istəyirəm. O, Azərbaycan Tibb Universitetinin (ATU) Tədris-Terapevtik Klinikasında yerləşən I daxili xəstəliklər və reanimatologiya kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru, eyni zamanda, tədqiqatçı-dilçidir. Ölkəmizin ictimai-siyasi həyatında öz mübarizə yolu olan vətənpərvər bir insan, AJB-nin üzvü, "Qızıl Qələm" və "Azərbaycan bayrağı" media mükafatları laureatı, xalqın dəyərli ziyalısıdır.**

**Nağdəli Tapdıq oğlu Zamanov 1961-ci il iyun ayının 18-də dağlar diyarı Kəlbəcər rayonunun Keştək kəndində dünyaya göz açıb. Dağların saf suyundan və havasından bəhrə tutan ürəyi uşaqlıqdan üzü bəri uca məramlar üçün döyünüb. O, zəka bünövrəsi ilə də Kəlbəcər rayon 1 saylı orta məktəbinə yollanıb. 1977-ci ildə həmin məktəbin məzunu olub. Əlaçı və fəal ictimaiyyətçi şagird kimi təlim-tərbiyə-təhsil mərhələsini uğurla başa çatdırıb. Yeniyetmə-gənc ən böyük arzusunun ardınca Tibb İnstitutuna sənəd verib. Həkimlik kimi müqəddəs bir sənəti qazanmaq məramı ilə paytaxta qəbula gəlib.Tələbə adı qazanmağın çətinliyindən adlayan gənc Nağdəli 1979-cu ildən etibarən gərəkli həkim olmağın pillələrində uğurlar ardınca irəliləyib. Müalicə-profilaktika fakültəsində yaxşı oxuyub, ixtisasını dərindən öyrənməyə çalışıb, bu məramla da yaxşı işlərə imza atıb. Bu axarla da müsahibimizlə oxucularımızı yaxından tanış etmək istəyirəm:**

**- Nağdəli müəllim, "Şam olmaq asan deyil, işıq saçmaq üçün əvvəlcə yanmaq gərək" - deyə Həzrəti Mövlana söyləmişdir. Ona görə də: "Xalq üçün, millət üçün özünü oda-alova atanlar da şam misallıdır" - deyirlər. Siz özünüzü müəyyən mənada xöşbəxtliyini başqalarına işıq, nur və sağlamlıq verməkdə tapanlardan biri sanırsınızmı?**

-1985-ci ildə həkim adı qazandım. Bunun bütün yollarını ağır və çətin olsa da keçməyi özümə borc sandım. Təyinatla Neftçala Mərkəzi Rayon Xəstəxanasına göndərildiyimdə mənə göstərilən diqqəti bir növ öyrənmək və tətbiq etmək vərdişlərimdə axtardım. Bu xəstəxanada həkim-terapevt kimi 4 il işlədim. Şəfa vermək, sağlamlıq bəxş etmək missiyası ilə əhalinin hörmətini qazanmaq, alim olmaq, elmi araşdırmalar aparmaq və bu istiqamətdə bilik-bacarıq və vərdişlərimi başqa bir müstəviyə yönəltməyi düşündüyümdə gücüm birə-yüz artdı.

**-Bildiyimə görə, əhali sizi sevirdi və oradan uzaqlaşmağınızı istəmirdi.**

- Çətinlikdən keçdikcə mübarizə əzmi insanı yeni işlərə ilhamlandırır. Bu səbəbdən də elmin çətin sularında, dərin dəryalarında üzmək üçün 1990-cı ildə Azərbaycan Tibb İnstitutunun aspiranturasına daxil oldum. "Xəzər Gəmiçiliyi üzgüçü heyəti arasında ürəyin işemik xəstəliyinin erkən aşkarlanması " mövzusunda 1994-cü ildə namizədlik dissertasiyası müdafiə edərək, tibb elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi qazandım. 1993-cü ildən Tibb Universitetində çalışıram.

**- Nağdəli müəllim, "Daxili xəstəliklərə dair izahlı testlər", "Naməlum etiologiyalı qızdırma", "Revmatoid artritdə ürək-damar sisteminin zədələnməsi" kitablarının, 100-dən artıq elmi məqalə və tezislərin müəllifisiniz. Bə, hansı zərurətdən doğuldu "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı kitabınız?**

- "Heydər-Xalq", "Xalq - Heydər" dialektik vəhdətinin bu gün də, sabah da var olacağının məntiqi davamı kimi böyük araşdırmalar tələb edən ulu öndər Heydər Əliyevin nitqinin özəllikləri ilə bağlı "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" adlı kitab çap etdirdim. Böyük şəxsiyyətin dil və nitq sahəsindəki çıxışlarının və araşdırmaların nəticəsini 10 ildən bəri KİV aləmində soydaşlarımızla bölüşürdüm. Artıq diqqət çəkməkdə olan həmin araşdırmaların nəticəsi - tədqiqat yazılarını, məqalələri oxucuların ixtiyarına vermişdim. Mən də bu yazıları sevə-sevə kitabın ayrı-ayrı fəsilləri şəklində işlədim. "Heydər Əliyevin nitqində məntiqi ardıcıllıq", "Heydər Əliyevin nitqində fəlsəfi fikirlər", "Heydər Əliyevin nitqində səmimiyyət", "Heydər Əliyevin nitqində qətiyyət", "Heydər Əliyevin nitqində poetik duyğular", "Heydər Əliyevin nitqində üslublar" başlığı ilə topluya daxil etdim və ictimaiyyətin ixtiyarına verdim.

**-Kitaba AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov ön söz yazıb. Bəs dilçi alimlər bu məsələyə necə yanaşdılar? "Sənətimizə ortaq olan tapıldı" sözü deyilmədi ki?**

-Azərbaycan nitq mədəniyyətinin inkişafında Heydər Əliyevin fəaliyyətinin öyrənilməsinə keçən əsrin 90-cı illərindən diqqət yetirilir. Bu sahədə akademiklər Bəkir Nəbiyev, Ağamusa Axundov, professorlar Nizami Xudiyev, Məsud Mahmudov, Nizaməddin Şəmsizadə, Məhərrəm Qasımlı və digərləri Heydər Əliyevin nitqlərinin gələcəkdə kompleks şəkildə öyrənilməsinin əsasını qoymuşlar. Mən də ümummilli liderə məhəbbətimin kiçik bir zərrəsini bu şəkildə verməyə çalışdım. Elə bilirəm, xalqın sevimli oğlu ilə bağlı nə deyilsə, yadigardır. Nizami Cəfərov ön sözdə yazır: "Kitabın hər iki cildi elmi-tədqiqat təsiri bağışlayır. "Heydər Əliyev Azərbaycan dilinin müdafiəsində" fəsli ilə müəllif Heydər Əliyevin Azərbaycan dilinin müdafiəsi ilə bağlı, eləcə də bu gün ölkə Prezidenti İlham Əliyevin dilimizin qorunması və inkişafı ilə bağlı verdiyi sərəncamları işıqlandırmaqla dil barəsində dövlət siyasətini açıqlaya, dövlət və dil dialektik vəhdətini ortaya qoya bilib. Heydər Əliyev irsinə sevgidən qaynaqlanan 17 fəsil və yarımfəsildən ibarət "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının II cildinin yaranmasına gətirib çıxaran məqalələr də bu qəbildəndir.

**- Sizin ilk kitabınızla bağlı əməkdar jurnalist F.Xəlilzadənin "Dilə münasibət vətən sevgisidir" başlıqlı məqaləsi qarşımda durur. Jurnalist xanım yazır: "Müəllifin həm ana dilimizə, həm də ulu öndərə olan dərin məhəbbət və ehtiramının sayəsində ortaya sanballı, dəyərli bir kitab qoyulub. Ana dilimizin saflığı, müdafiəsi, mübarizəsi yolunda bütün dövrlərdə cəsarətli addımlar atan, çox böyük işlər görən Heydər Əliyev kimi bir lider haqqında bu gün orijinal kitab yazmaq, onun fəaliyyətinə ayna tutmaq, təhlil etmək elə də asan məsələ deyil".**

-Bəli, mən də məsələnin bir növ asan olmayan tərəfini seçmişdim. Çünki dahi şəxsiyyətin həyatı məhz keşməkeşlərin, mərdimərdanə saysız çətinliklərin tufanından keçməsindən ibarət idi deyə, ulu öndərin nitqindən tutmuş çıxışlarını, imzaladığı sərəncamları, həyata keçirdiyi tədbirləri, arzu və istəklərinin müqəddəsliyini oxucuya məzmunlu şəkildə çatdırmaq məsuliyyətini qəlbdən anlayaraq, bənd-bənd, söz-söz təhlil etməyi özümə mənəvi borc sanmışdım.

**- Dəfələrlə etiraf edilib ki, Heydər Əliyevin natiqlik məharətinin analoqu yoxdur. Elə etiraflardan birini də kitabın II fəslində oxuyuruq: "Bütün auditoriyalarda Heydər Əliyevin heç yerdə yazılmayan, heç kəs tərəfindən təkrarı olmayan nitqinin şahidi oluruq".**

- Hamımıza bəlli idi ki, Heydər Əliyev bütün problemləri məhz nitqi ilə izah edirdi. Unudulmaz insanın natiqliyinə özünəməxsusluq gətirən amillərdən biri də Heydər Əliyevin iti müşahidəçilik qabiliyyətinə malik olması idi. Bu səbəbdən də ona qulaq asanda yorulmazdıq. Əlbəttə, Heydər Əliyev auditoriyanı nəzərə alardı. Heydər Əliyevin nitqində həmişə diqqətçəkən girişlər və sonluqlar olardı.

**-Nağdəli müəllim, Heydər Əliyevin nitqində məntiqi ardıcıllıq, fəlsəfi fikir, səmimiyyət, qətiyyət, nikbinlik, proqnozlar, poetik duyğular kitabın 7 fəslində ardıcıllıqla, faktlarla təhlil edilir. Təxminən neçə mənbədən istifadə etmisiniz?**

- Bu, kitabın sonunda istifadə olunan ədəbiyyat bölümündə yazılıb - 100-dən artıqdır. Forma və məzmun vəhdəti Heydər Əliyev nitqinin əsas məzyyətidir. Heydər Əliyev istənilən məsələyə, predmet hadisələrə öz fəlsəfi süzgəcindən baxır, öz fəlsəfi təfəkkürü əsasında qiymət verməyi bacarır və bizləri də forma ilə kifayətlənməyib məzmunun daxili qatlarına nüfuz etməyə sövq edir. Milli özünüdərkə yönələn fəlsəfi düşüncələri görməkdə, anlamaqda bizə kömək edir.

**- Kitabla tanışlığımdan bir məqamı da öyrəndim ki, Azərbaycan dilinin zənginliklərindən ustalıqla bəhrələnən, sadə, aydın, təsirli danışmağı bacaran ulu öndərin nitqindəki elmi üslub da ayrıca bir araşdırmanın mövzusudur. Hələ ki, bu sahədə geniş tədqiqata rast gəlinmir. Amma Siz bu məsələyə diqqət yönəltməyə çalışmısınız.**

- Tamamilə doğrudur. XI fəsildə dahi şəxsiyyətin çıxış və nitqlərindəki elmi üslubun xarakterik əlamətlərindən bəhs etmişəm. Heydər Əliyevin nitqinə məxsus olan elmilik Azərbaycan dilinin geniş imkanlarından yararlanır. Nitqdə elmilik dəqiqləşdirmələr tələb edir ki, bu baxımdan dəqiqləşdirici ədatlar böyük natiqin dilində həm qüvvətləndirmək, həm də dəqiqləşdirmək xüsusiyyəti kəsb edir. Bu da faktdır ki, Heydər Əliyevin nitqində bütün üslublar harmoniya təşkil edirdi. Elə bu səbəbdən də onu hamı başa düşürdü. Ümummilli liderimizin nitqində publisistik üslub da aydın hiss olunurdu.

**- Biz yazarlar üçün də xoşdur ki, kitabda Heydər Əliyevin nitqində geniş yer tutan publisistik üslub da ayrıca bir fəsildə cəmləşib.**

- Bu üslubda digər üslubların əlamətlərindən-terminlərdən, bədii ifadələrdən, dəlil və misallardan istifadə etmək mümkündür. Heydər Əliyevin publisistik nitqində məhz bu ruh hakim idi.

**- Qaldırdığınız və təhlil etdiyiniz məsələlər çox mətləblərin-dil üzrə araşdırmaların mahiyyəti, məzmunu baxımından, fəlsəfi məfkurə qaynaqlarına əsasən və mənbə olaraq böyük bir elmi əsərdir. Hətta deyərdim ki, doktorluq dərəcəsi almağa bərabər böyük araşdırmaların məcmusudur. Bütün dəqiq məqamlar isə müzakirə zamanı ortaya çıxır. Buna münasibətiniz?**

- Razıyam. Zəkanın nəticəsidir həqiqətə qovuşmaq. Həqiqətə çatmaq və dəqiq nəticə almaq üçün isə müzakirələr danılmazdır.Azərbaycan dili öz şirinliyini ilk növbədə anamızın laylalarından alıb. Hələ körpəlikdən sözün nə olduğunu bilmədiyimiz çağlarda qulağımızı oxşayan səsin ahəngindəki qeyri-adi şirinlik ruhumuza axaraq varlığımıza hopub. Buna görədir ki, insanlar arasında ünsiyyət yaradan bu vasitəyə Ana dili deyirik.Təvazökarlıqan kənar olsa da, deyim ki, kitabda elə məsələlər qaldırılıb, elə təhlillər aparılıb ki, hələ çox illər onun dönə-dönə işlənməsi vacib sayılacaq. Fəsillərin təkcə adları kifayətdir ki, onun hər birinin toxunduğu mövzular haqqında monoqrafiyalar yazılsın.Qalan məsələlər isə bu sahənin ustadlarının ixtiyarındadır.

**- Anaya məhəbbət dilə münasibəti formalaşdırır. Dilə məhəbbət isə Vətən sevgisi deməkdir. İnsan özü olmasa, başqasına nəyi təsdiq etdirər?**

- Elə ona görə də Heydər Əliyev müəyyən görüşlərdə, tədbirlərdə və xalqla ünsiyyətdə deyirdi: "Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır, bunlarsız isə vətənpərvərlik formulu yoxdur". Heydər Əliyev yürütdüyü dil siyasətində həmişə çalışırdı ki, gənc nəsildə bu cür nəcib hisslərin tərbiyə edilməsi ön planda olsun. Ulu öndər ana dilini, sadəcə, öyrənməyi deyil, onu sevməyi də tələb edirdi. Bu mənada dillə bağlı söylədiyi bütün fikirlərdə, çıxış və məruzələrdə həmişə böyük mənalar duyular, müdriklik hiss edilərdi. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini də yaxşı bilməz.

**- Kitabın ön söz bölümündən əvvəldə elmi redaktor olaraq filologiya elmləri doktoru, professor Məsud Mahmudovun, rəyçilər sırasında professorlar Nadir Məmmədlinin, İlham Tahirovun adı yer alıb. Ön sözün də müəllifi AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərovdur. Nağdəli müəllim, bəlkə elə "Müəllifdən" bölümündəki sözlərinizlə bitirək müsahibəni?**

- Olar. Ümidvar olduğumu bildirirəm ki, Heydər Əliyevin nitqləri əsasında XXI əsr türk dünyası liderlərinin nitqlərinin araşdırılmasını milli təəssübkeş ziyalılarımız özlərinə qələm borcu sanacaqlar. "Dil-ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də ədəbi-bədii aləmin sehrli açarıdır" - deyən ulu şəxsiyyət Heydər Əliyevin demək olar ki, bütün nitqləri şifahi və yazılı bir abidə təsiri yaratmışdır. Bu irsi öyrənmək və öyrətmək missiyası isə bunu yaxşı dərk edənlərin öhdəsinə düşmüşdür. Mən də belə bir amalla o zəngin məktəbə baş vurdum, aktual və əhatəli bir nümunə yaratmağa çalışdım. Hər yaxşı əməl bizim Zəfərə daha yaxın olmağımız deməkdir. Mən də ürəyi nisgilli bir Vətən oğlu kimi işğal altında inləyən o torpaqları azad görmək borcuna sığındım - Qələbə naminə.

**Sülhiyyə Musaqızı**